Yazan
24.11.13 19:13 -



Bu gün Prezident İlham Əliyevə "Mətbuatın dostu" mükafatının təqdim edilməsi mərasimi keçirilib. Tədbirdə Mətbuat Şurasının üzvləri, Azərbaycan Prezidenti yanında KİV-lərə Dövlət Dəstəyi Fondunun nümayəndələri, bir sıra kütləvi informasiya vasitələrinin rəhbərləri iştirak ediblər.

Mərasimdə çıxış edən Mətbuat Şurasının sədri Əflatun Amaşov sorğunun keçirilmə prinsipləri barədə məlumat verib və İlham Əliyevi qalib olduğu üçün təbrik edib.

Bundan sonra Bakı Dövlət Universitetinin müəllimi, professor Şirməmməd Hüseynov, millət vəkili Aqil Abbas, “Yeni Müsavat” qəzetinin baş redaktoru Rauf Arifoğlu, qocaman jurnalist Yusif Kərimov, “525-ci qəzet”in baş redaktoru Rəşad Məcid çıxışlarında Azərbaycan prezidentini təbrik edib, medianın inkişafı ilə bağlı fikirlərini söyləyiblər.

Rauf Arifoğlu metroda qəzet satışı ilə bağlı yaranmış problemi qaldırıb.

Dövlət başçısı bütün problemləri dinlədikdən sonra onların həlli istiqamətində tapşırıqlar verib.
Daha sonra prezident Azərbaycan mediasının durumu ilə bağlı öz düşüncələrini açıqlayıb. İlham Əliyev bildirib ki, Azərbaycanda digər hüquq və azadlıqlar kimi söz və mətbuat azadlıqları da qorunur. Azərbaycanda əhalinin 70 faizdən çoxunun internet istifadəçisi olduğunu və internetdə heç bir məhdudiyyətin olmadığını diqqətə çatdırıb: “Mediaya qarşı heç bir ayrı-seçkilik yoxdur. Ola da bilməz. Qəzet satışı ilə bağlı da heç bir məhdudiyyət yoxdur. Azərbaycanda azad internet məkanı var, bütün ölkə boyu genişzolaqlı internet xətləri çəkilir, insanlar azad şəkildə internetdən istifadə edirlər. Belə olan halda qəzet satışının məhdudlaşdırılmasından söhbət gedə bilməz”.

.

Azərbaycan prezidenti İlham Əliyev çıxışında ölkədə görülən işlərdən, aparılan islahatlardan da danışıb. Ölkə başçısı Azərbaycanda demokratik dəyərlərin, azad söz və medianın mövcud olduğunu qeyd edib. Prezident medianın siyasi qütbləşmədən və xarici dəstəkdən asılı olmaması üçün dövlətin addımlar atmağa hazır olduğunu da bildirib: “Azərbaycanda azad media var. Biz onun daha da inkişaf etməsində maraqlıyıq”.